# Dünyamız 2016-cı ildə

**2016-cı il artıq geridə qalıb. Ölkəmiz üçün hərbi, iqtisadi, siyasi, tibbi, sosial və başqa sahələrlə bağlı bir sıra hadisələrlə yadda qalan 2016-cı il Azərbaycan üçün sınaq ili oldu.**

**Bəs, görəsən, 2016-cı il dünyada və ölkəmizdə daha çox nələrlə yadda qaldı? "İqtisadiyyat" qəzeti olaraq ötən il ərzində baş vermiş ən diqqət çəkən hadisələri bir yerə toplamağa çalışdıq.**

Yanvarın 1-dən GUAM-a sədrlik Ukraynadan Azərbaycana keçmişdir.

Yaxın 4 ildə təşkilatın baş katibi Azərbaycanın İspaniyadakı keçmiş səfiri Altay Əfəndiyev olacaqdır. O, bu postda gürcü diplomatı V.Çeçelaşvilini əvəz etmişdir.

2014-cü il sentyabrın 26-da BMT Baş Məclisinin 69-cu sessiyasında Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun 2016-cı ildə Bakıda keçirilməsi barədə qərar qəbul edilib. 25-27 aprel tarixlərində Bakıda Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci qlobal forumu keçirilib. Forumda dünyanın 140-dan çox ölkəsindən nümayəndə heyətləri, çoxsaylı beynəlxalq təşkilatların, dini konfessiyaların, QHT-lərin nümayəndələri iştirak edib.

17-19 iyun tarixlərində Bakıda "Formula-1" üzrə dünya çempionatının səkkizinci – Avropa Qran-Pri yarışları keçirilib. Hər biri iki pilotla təmsil olunan 10 komandanın birincilik uğrunda mübarizə apardığı yarış trekinin uzunluğu 6 kilometr olub. Bakı şəhər halqasında dünyanın ən məşhur pilotları – Luis Hamilton, Fernando Alonso, Niko Rosberq, Sebastian Fettel, Valtteri Bottas və digərləri məharətlərini göstəriblər.



Maraqlısı odur ki, nadir xüsusiyyətlərə sahib Bakı şəhər halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçıları YUNESKO-nun ümumdünya mədəni irs siyahısına daxil olan İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görə bilsinlər.

Layihənin müəllifi bütün müasir "Formula-1" treklərinin memarı olan Herman Tilkedir.

Bakı şəhər halqası şəhərin tam mərkəzindən və ən gözəl məkanlarından keçib. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqamı qarşıya məqsəd qoyublar. Bundan başqa, trekdə yarış avtomobillərinin hərəkəti saat əqrəbinin əks istiqamətində qurulub. Ümumilikdə, 30 minə yaxın tamaşaçı yarışı tribunalardan canlı izləyə bilib.

Trekin ən geniş yerinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edib.

17-30 sentyabr tarixlərində paytaxtımızda Şahmat Olimpiadası keçirilib. Bakının ev sahibliyi etdiyi 42-ci Olimpiada indiyədək Azərbaycanda keçirilən ən kütləvi yarış kimi tarixə düşüb. Bu mötəbər yarışda iştirak etmək üçün 176 ölkə qeydiyyatdan keçib. Olimpiadada 181 kişi və 142 qadın komandası mübarizə aparıblar. Bu, iştirakçı ölkələrin sayına görə Olimpiada tarixində rekord göstəricidir.

Şahmat Olimpiadası hazırda 150-dən çox ölkəni, 3 minədək idmançını və rəsmiləri əhatə edən əsas idman yarışlarından biridir. FIDE 1927-ci ildə Londonda birinci rəsmi Olimpiadanı ("Olimpiada" adı yalnız 1952-ci ildə təsdiqlənib) təşkil edib. Bundan sonra olimpiadalar İkinci Dünya müharibəsinə qədər bəzən hər il, bəzən isə qeyri-müntəzəm intervallarla keçirilib. Şahmat Olimpiadası tarixində 1939-cu ildən 1950-ci ilədək uzun fasilə olub. 1950-ci ildən isə olimpiadalar mütəmadi olaraq, hər iki ildən bir keçirilməyə başlayıb. 1927-ci ildən indiyədək 41 Ümumdünya Şahmat Olimpiadası təşkil olunub.

2016-2017-ci illərdə YUNESKO-nun yubileylər proqramı çərçivəsində təşkilatın baş qərargahında Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin qeyd edilməsinə dair təklifləri qəbul olunub.

Azərbaycanın böyük şair və mütəfəkkirləri İmadəddin Nəsiminin (1369-1417) vəfatının 600, Molla Pənah Vaqifin (1717-1797) isə 300 illik yubileyləri qeyd ediləcək.

Azərbaycan Prezidenti İlham Əliyev "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" Fərman imzalayıb.



Fərmanda deyilir ki, Azərbaycan Respublikasında qeyri-neft sektorunun davamlı və rəqabətqabiliyyətli inkişafı dövlətin iqtisadi siyasətinin prioritet istiqamətidir.

Ölkənin perspektiv inkişaf hədəflərini və istiqamətlərini müəyyənləşdirmək, onların gerçəkləşdirilməsini təmin etmək məqsədilə imzalanan Fərmanla əsasən aşağıdakı strateji yol xəritələri təsdiq edilib:

- "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında ağır sənaye və maşınqayırmanın inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi";
- "Azərbaycan Respublikasında kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair Strateji Yol Xəritəsi".

Sentyabrın 26-da Azərbaycan Konstitusiyasına dəyişikliklər edilməsi ilə əlaqədar olaraq ümumxalq səsverməsi (referendum) keçirilmişdir.




Dəyişikliklərdə bir neçə önəmli məsələ yer alıb. Burada qeyd olunub ki, Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir. 58-ci maddənin IV hissəsinin birinci cümləsi aşağıdakı redaksiyada verilib: "Azərbaycan Respublikasının bütün ərazisində və ya hər hansı hissəsində qanuni dövlət hakimiyyətini zorla devirmək məqsədi, cinayət hesab edilən digər məqsədlər güdən və ya cinayətkar üsullardan istifadə edən birliklər qadağandır". Dəyişikliklərə əsasən, prezidentlik dövrü 5 ildən 7 ilə yüksəldilib. Yeni Konstitusiya Aktına Azərbaycan Respublikasının vitse-prezidentləri haqqında maddə salınıb. Bu maddəyə əsasən, Azərbaycan Respublikasının birinci vitse-prezidenti və vitse-prezidentləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

Silahlı qüvvələrimiz aprel ayında cəbhə xəttində Ermənistan silahlı birləşmələrinin həmləsini dəf edərək, əks hücuma keçdi. Strateji yüksəkliklər ələ keçirildi. Bu, onu göstərir ki, Azərbaycan ordusu qarşısına qoyulan vəzifəni yerinə yetirməyə hazırdır. Dağlıq Qarabağ məsələsində təşəbbüs birmənalı şəkildə Azərbaycanın əlinə keçib. Azərbaycan Ermənistana təzyiq siyasətini artırmaqda davam edəcək.



Dekabrın 15-də Xəzər dənizində neftçilərin itkin düşməsi ilə nəticələnən böyük bir faciə baş verdi. Çox təəssüf ki, iki ildir hər ilin dekabrında Azərbaycan bu faciəni yaşayır.



2016-cı ildə manatın dəyərdən düşməsi də əsas hadisələrdən biri sayılır. Neftin qiymətinin düşməsi, dolların uçot dərəcəsinin qalxması manatın dəyərdən düşməsinə səbəb oldu. Bu da, şübhəsiz ki, iqtisadi sektora təsir edən amillərdən biridir.

Səhiyyədə icbari tibbi sığorta ilə bağlı pilot layihəsinin işə düşməsi və bununla bağlı tədbirlərin gücləndirilməsi təqdirəlayiq hal oldu.



2016-cı ilin ən çox müzakirə olunan siyasi hadisələrindən biri Böyük Britaniyanın referendum keçirərək Avropa Birliyindən ayrılıq qərarı verməsi idi. Referendumda əhalinin 53,4%-i BREXİT üçün "Yes" deyərək tarixi qərar verdi. Bu qərar, eyni zamanda, Britaniyada milliyətçiliyin yüksəlişi, Qərbdə isə qloballaşmağa qarşı lokallaşmağın güclənməsi olaraq dəyərləndirildi.




Suriyada vətəndaş müharibəsinin başlaması ilə birlikdə qlobal təhdidə çevrilən İŞİD 2016-cı ildə də dünyanın fərqli ölkələrində terror aktlarına davam etdi. Türkiyə, İraq, Suriya, Banqladeş və Belçika, Almaniya və Fransada baş verən terror aktlarında 1500-ə yaxın adam öldü.



Bu il həm də dünyanın super gücü sayılan ABŞ-da prezident seçkiləri keçirildi. Amerikanın prezidentliyə ilk qadın namizədi Hillari Klinton və irqçi mesajları ilə diqqət çəkən biznesmen Donald Trump arasında keçən qızğın yarışın qalibi Donald Trump oldu. Siyasi ekspertlər bu nəticənin Qərbdə radikal sağın yüksəlişi, qloballaşmanın zəifləyəcəyi olaraq dəyərləndirir.



İyul ayının 15-də, illər sonra Türk Ordusu növbəti dəfə hərbi çevrilişə cəhd etdi. Ancaq 15 iyulda yaşananların əvvəlkilərdən fərqi orduda sızmış fəthullahçılar tərəfindən təşkil olunması idi. Yüz minlərlə insanın küçəyə çıxması ilə qarşısı alınan hərbi çevriliş cəhdi 247 nəfərin ölümünə səbəb olmuşdu.



Azərbaycan xəbərlərində çox yer almış olmasa da, 2016-cı ilin ən vacib hadisələrindən biri marksist gerilla hərəkatı olan FARC ilə Kolumbiya hökuməti arasında Kuba və Norveç vasitəçiliyi ilə sülh sazişi imzalandı. Uzun illərdir davam edən toqquşmalar nəhayət qarşılıqlı güzəştə gedilərək dayandırıldı.




Bütün dünya solçuları üçün Fidel Kastro imperializmə qarşı savaşan qəhrəman idi. Kuba inqilabının lideri 90 yaşında vəfat etdi. O, Afrika xalqlarının apardığı mübarizəyə verdiyi dəstək, yoxsul ölkələrə göndərdiyi həkimlər və Kubada yaratdığı sosialist sistemlə yaddaşlarda qaldı.



19 dekabrda Rusiyanın Türkiyədəki səfiri Andrey Karlov 23 yaşlı sui-qəsdçi polis tərəfindən sənət qalereyasında çıxış edərkən arxadan güllələnərək öldürüldü.



İlin son günlərində baş verən hadisənin bütün dünyada şok təsiri yaratması ilə birlikdə Orta Şərqdə gərginliyi və münasibətləri qəlizləşdirəcəyi də gözlənilir.

Latın Amerikasında, özəlliklə də Braziliyada yayılan zika virusu yüzlərlə insanın ölümünə səbəb oldu. İlk dəfə 1947-ci ildə Uqandada ortaya çıxan virus illər sonra təkrar peyda oldu. Virusun özəlliklə hamilə qadınları təhdid etməsi daha qorxulu vəziyyət yaradır.



Heyvanlar üçün 2016 elə də pis keçmədi. Uzun illərdən sonra pandalar nəhayət risk altında olan heyvanlar siyahısından çıxarıldı. Çində dövlət tərəfindən qorunmağa başlanan pandalar artıq artmağa başlayıb.



Risk altında yaşayan və nəsli tükənməkdə olan pələnglər də 2016-cı ildə bizi sevindirdi. 2010-cu ildə sayı 3200 olan pələnglərin sayı bu il 3890-a yüksəldi.

2016-cı ildə kosmos sahəsində də tarixi anlar yaşandı. NASA tərəfindən göndərilən Yuno Yupiter orbitinə daxil olaraq Yer Kürəsinə data göndərməyə başladı.



**Hazırladı:**
**Mansur Mədətov,**
**iqtisad üzrə fəlsəfə doktoru**